**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 10/3

Bakı şəhəri 13 aprel 2021-ci il

“AMEA Yüksək Texnologiyalar Parkının rezidentlərinin fəaliyyətləri haqqında hesabat-statistik məlumatların alınması, onların fəaliyyətinin monitorinqinin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin 15 may 2014-cü il tarixli 168 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə”nin 6.1.14-cü yarımbəndinin icrasını və “Azərbaycan Milli Elmlər Akademiyası Yüksək Texnologiyalar Parkı”nın (Texnopark) rezidentlərinin fəaliyyətləri haqqında hesabat-statistik məlumatların alınması və onların fəaliyyətinin monitorinqinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. “Azərbaycan Milli Elmlər Akademiyası Yüksək Texnologiyalar Parkının rezidentlərinin fəaliyyətləri haqqında hesabat-statistik məlumatların alınması, onların fəaliyyətinin monitorinqinin həyata keçirilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).
2. “AMEA Yüksək Texnologiyalar Parkı” MMC-nin baş direktoru Vasif Abbasova tapşırılsın ki, Texnoparkın rezidentlərindən hesabat-statistik məlumatların alınması və onların fəaliyyətinin monitorinqinin həyata keçirilməsi zamanı bu Qaydanın tələblərinə əməl edilsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın birinci vitse-prezidenti akademik Dilqəm Tağıyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Ramiz Mehdiyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ APARAT

AMEA-nın akademik-katibi akademik Adil Qəribov

Azərbaycan Milli Elmlər Akademiyası
Rəyasət Heyətinin 13 aprel 2021-ci il tarixli
10/3 nömrəli qərarı ilə təsdiq edilmiş əlavə

**AMEA Yüksək Texnologiyalar Parkının rezidentlərinin fəaliyyətləri haqqında hesabat-statistik məlumatların alınması, onların fəaliyyətinin monitorinqinin həyata keçirilməsi**

**QAYDASI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli, 168 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"nin (bundan sonra – Nümunəvi Əsasnamə) 6.1.14-cü yarımbəndinə əsasən hazırlanmışdır və AMEA Yüksək Texnlogiyalar Parkının (bundan sonra – texnopark) rezidentlərinin (bundan sonra – rezident) fəaliyyətləri haqqında hesabat-statistik məlumatların (bundan sonra – hesabat-statistik məlumat) alınması, onların fəaliyyətinin monitorinqinin həyata keçirilməsi qaydasını müəyyən edir.

1.2. Rezidentin fəaliyyəti haqqında hesabat-statistik məlumatların alınması və onun fəaliyyətinin monitorinqi texnoparkın idarəedici təşkilatı (bundan sonra – idarəedici təşkilat) tərəfindən həyata keçirilir.

1.3. Hesabat-statistik məlumatların alınmasının və rezidentin fəaliyyətinin monitorinqinin məqsədi rezidentin texnoparkdakı fəaliyyətinin öyrənilməsi, Nümunəvi Əsasnamənin tələblərinə, sahibkarlıq fəaliyyətinə dair müqavilənin şərtlərinə rezident tərəfindən əməl olunmasının təmin edilməsi və bu istiqamətdə ona köməklik göstərilməsindən ibarətdir.

1.4. Bu Qaydada istifadə edilən anlayışlar Nümunəvi Əsasnamədə nəzərdə tutulan mənaları ifadə edir.

## 2. Rezidentin fəaliyyəti haqqında hesabat-statistik məlumatın alınması

2.1. Hesabat-statistik məlumat ildə iki dəfə yarımillik dövr üçün alınır. Hesabat-statistik məlumatın alınması üçün hesabat dövrü aşağıdakı kimi müəyyən olunur:

2.1.1. birinci yarım illik hesabat dövrü - 01 yanvar – 30 iyun;

2.1.2. ikinci yarım illik hesabat dövrü - 01 iyul – 31 dekabr.

2.2. Hesabat-statistik məlumat hər hesabat dövründən sonrakı ayın ilk 10 iş günündən gec olmayaraq rezident tərəfindən idarəedici təşkilata təqdim edilir.

2.3. Hesabat-statistik məlumatda aşağıdakı məlumatlar göstərilir (qaydalara 1 nömrəli əlavə):

2.3.1. rezidentin adı (sahibkar fiziki şəxslərin soyadı, adı və atasının adı), VÖEN-i və texnoparkın qeydiyyat şəhadətnaməsinin nömrəsi;

2.3.2. rezident tərəfindən istehsal (emal) olunan məhsulların və bu prosesdə istifadə olunan xammalın adı, həcmi və dəyəri, texniki xarakteristikası, habelə xammalın mənşəyi;
2.3.3. istehsal (emal) olunmuş məhsulların ölkə daxili satışı və ixracı ayrı-ayrılıqda göstərilməklə, satılmış məhsulların həcmi və dəyəri;
2.3.4. rezidentin işçilərinin orta aylıq sayı və orta aylıq əməkhaqqı fondu;
2.3.5. innovasiyaların tətbiq olunması (məhsullara, istehsal prosesinə və s.) ilə bağlı görülən işlər, o cümlədən, elmi araşdırmalar və (və ya) elmi araşdırmanın nəticələrinin tətbiqi ilə bağlı;
2.3.6. Texnoparka qoyulan investisiyaların həcmi.
2.4. Hesabat-statistik məlumat yazılı şəkildə şəxsən təqdim olunur və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla göndərilir.
2.5. Təqdim edilən hesabat-statistik məlumatın səhifələri nömrələnməli və hesabat rezidentin səlahiyyətli şəxsi tərəfindən təsdiq edilməlidir. Elektron üsulla göndərilən hesabat-statistik məlumat rezidentin səlahiyyətli şəxsinin gücləndirilmiş elektron imzası ilə təsdiq edilməlidir.
2.6. Rezident hesabat-statistik məlumatı bu Qaydanın 2.2-ci bəndində müəyyən olunmuş müddətdə təqdim etmədikdə, idarəedici təşkilat həmin rezidentə yazılı surətdə xəbərdarlıq etməklə hesabatın 10 iş günü müddətində təqdim edilməsinə dair yazılı bildiriş verir. Bu müddətdə hesabat-statistik məlumatı təqdim etməyən rezident texnoparkda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair idarəedici təşkilatla bağladığı müqaviləyə uyğun məsuliyyət daşıyır.
2.7. Rezident təqdim etdiyi hesabat-statistik məlumatın tamlığına və düzgünlüyünə görə texnoparkda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair idarəedici təşkilatla bağladığı müqaviləyə uyğun məsuliyyət daşıyır.
2.8. İdarəedici təşkilat rezident tərəfindən təqdim edilən və kommersiya sirri hesab olunan məlumatların qorunmasını təmin edir.

**3. Rezidentin fəaliyyətinin monitorinqinin həyata keçirilməsi**

3.1. Rezidentin fəaliyyətinin monitorinqi (bundan sonra – monitorinq) rezident tərəfindən Nümunəvi Əsasnamənin tələblərinə, sahibkarlıq fəaliyyətinə dair müqavilənin şərtlərinə əməl olunması ilə bağlı məlumatların toplanmasından, öyrənilməsindən və monitorinqin nəticələri üzrə bu Qaydanın 3.3-cü və 3.4-cü bəndlərində nəzərdə tutulmuş tədbirlərin görülməsindən ibarətdir.
3.2. Monitorinq ildə iki dəfədən çox olmayaraq aparılır və nəticələri əsasında idarəedici təşkilat tərəfindən hesabat tərtib edilir.

3.3. Monitorinqin nəticəsində rezident tərəfindən Nümunəvi Əsasnamənin tələblərinin və texnoparkda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair müqavilənin şərtlərinin pozulduğu müəyyən edildikdə, bu barədə idarəedici təşkilat tərəfindən rezidentə yazılı bildiriş verilir. İdarəedici təşkilat monitorinq nəticəsində aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması üçün tədbirlərin müəyyən olunması və həyata keçirilməsində rezidentə köməklik göstərilməlidir.

3.4. Monitorinq zamanı məlumatların əldə edilməsi, ortaya çıxmış sualların cavablandırılması və aşkar olunmuş pozuntuların aradan qaldırılması məqsədi ilə rezidentin monitorinqdə iştirak etmək hüququ vardır.

3.5. Bu Qaydanın 3.4-cü bəndində göstərilən məsələlərin aydınlaşdırılması məqsədi ilə idarəedici təşkilatın rezidentə və aidiyyəti dövlət orqanlarına sorğularla müraciət etmək hüququ vardır.

3.6. Rezident sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair müqavilədən irəli gələn vəzifələrin pozulması hallarını aradan qaldırmalıdır. Monitorinqin nəticələrinə əsasən aşkar olunmuş pozuntuların aradan qaldırılmamasına görə rezident texnoparkda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair idarəedici təşkilatla bağladığı müqaviləyə uyğun məsuliyyət daşıyır.

## Rezidentin fəaliyyəti haqqında hesabat-statistik məlumat

Rezidentin adı: ____________________

Dövr: ____________________

VÖEN: ____________________

Qeydiyyat şəhadətnaməsinin nömrəsi: ____________________

İşçilərin orta sayı: ____________________

Orta əmək haqqı: ____________________

Hesabat dövründə sənaye parkına qoyulan investisiyaların həcmi: ____________________

| **Şirkət tərəfindən istehsal (emal) olunan məhsulların** | | | | | **İstehsal (emal) olunmuş məhsulların ölkə daxili satışı** | | **İstehsal (emal) olunmuş məhsulların ixracı** | |
|---|---|---|---|---|---|---|---|---|
| **Sıra №-si** | ***Adı*** | ***Ölçü vahidi*** | ***Həcmi*** | ***Dəyəri*** | ***Həcmi*** | ***Dəyəri*** | ***Həcmi*** | ***Dəyəri*** |
| | | | | | | | | |

| **Şirkət tərəfindən istehsal prosesində istifadə olunan xammalın (ayrı-ayrılıqda göstərilməklə):** | | | | | |
|---|---|---|---|---|---|
| Sıra №-si | *Adı* | *Ölçü vahidi* | *Həcmi* | *Dəyəri* | *Xammalın mənşəyi* |
| | | | | | |

____________________